# MƏHƏMMƏD FÜZULİNİN QƏZƏLLƏRİNDƏ TƏBİƏT VƏ MƏHƏBBƏT FƏLSƏFƏSİ

**Aygül Hacıyeva**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*aygul.akhundoff@gmail.com*

Məhəbbətin öz fəlsəfəsi vardır; uzunmüddətli iztirab, xəyal, vüsal, göz yaşları, şam kimi ərimək, tənhalıq və s. Sevən insanın haldan-hala düşməsi folklorumuzda, klassik ədəbiyyatımızda poeziya dili ilə dilə gətirilmişdir. O dil sevgi fəlsəfəsi üzərində köklənərək, əsrlərin sınağından çıxaraq "İlahi sevgi"nin təcəssümü kimi yüksək həddə çatmışdır. Eşq fəlsəfəsi çox geniş anlayışdır, lakin onların ən zərifi sevən insanların həyat fəlsəfəsinə aiddir. Uğurlu və ya uğursuz olmasından asılı olmayaraq, o, insanı dilə gətirir, xalq içərisində "rüsvay" edir. Bu fəlsəfə dünya xalqlarının poeziyasında özünəməxsus şəkildə əks olunmuşdur.

I. Təbiət də öz məntiqi ilə inkişaf edir, fəsillər üzrə haldan-hala düşür, bütün varlıqlar bu dəyişkənliyin içərisində yaşayır. İnsan şüurlu varlıq olaraq öz psixoloji halı ilə təbiət arasında bir harmoniya görə bilir,

insan təbiətin bir parçası olaraq yenidən təbiətləşir. Bu məqam poeziya dilində, xüsusilə M.Füzulinin qəzəllərində canlı şəkildə görünür.

Bərqi-ahim göy üzün tutmuş, sirişkim yer üzün,
Söhbətimdən həm vühuş etmiş tənəffür, həm tüyur (100).
Qansı mahin, bilməzəm, mehrilə olmuş zar sübh,
Hər gün eylər xəlqə bir daği-nihan izhar sübh (90).

M.Füzulinin qəzəllərində təbiət və məhəbbət fəlsəfəsi elə çulğalaşmış vəziyyətdədir ki, onlar vahid bir harmoniyanın tərkib hissələrinə çevrilmişdir. Yuxarıda verilən nümunələrdə "sübh" hər gün "daği-nihanı" izhar edir, "eşqdən bərqi-ah göy üzünü tutur" misralarında M.Füzulinin məhəbbət fəlsəfəsinin canlı ifadəsini görürük.

II. M.Füzulinin qəzəllərində fəslin xalq içərisində anlamına müvafiq olaraq, məhəbbət və təbiət fəlsəfəsi mənalandırılır; yaz fəsli vüsal vaxtı kimi dəyərləndirilir:

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı? (290).

Bahar suları bir-birinə qovuşduğu kimi, aşiq də eşqində qovuşmaq təmənnasındadır.

III. M.Füzulinin məhəbbət fəlsəfəsində eşqin nuru günəşlə müqayisəyə gətirilir və eşqin ziyasını ondan da parlaq, güclü və işıqlı görür:

Sən üzündən aləmi-rövşən qılıb saldın niqab,
Yazıya salsın bu gündən böylə nurin afitab (66).
Gögdə ahim yeli söndürdü çirağın günəşin,
Yerdə əşkim ayağa saldı düri-qəltani (291).

İkinci nümunədə aşiqin eşqindən çəkdiyi ah günəşi söndürür. M.Füzulinin yaradıcılığında belə bir müqayisə – təbiətlə məhəbbət qarşılaşdırılması xüsusi olaraq orijinallıq kəsb edir.

IV. Məhəmməd Füzulinin qəzəllərində məhəbbət çox dəyərlidir, hətta böyük coğrafi ərazini tutmağa, xərac kimi almağa bərabərdir:

Bir pəri zülfün tutub xalindən alsan kami-dil,
Tut ki, Çin mülkini tutdun, Hinddən aldın xərac (85).

Yuxarıdakı nümunədə "Çin mülkünü tutmaq", "Hinddən xərac almaq" hiperbolik vahidlərdir. Məhəmməd Füzulinin məhəbbət fəlsəfəsi şairin ruhunda təbiət fəlsəfəsi ilə çulğalaşmış, nəticədə onun məhəbbət dünyasının təmsilçisinə çevrilmişdir.